# VƏTƏN MÜCAHİDLƏRİ

14 dekabr 2019-cu ildə Nərimanov rayon İcra Hakimiyyətində üç gənc yazar xanımın - Aysel Nəsirzadənin, Gülnarə Sadiqin və Manya Səxavətqızının layihə rəhbəri olduqları "Vətən mücahidləri 1-ci nəşr" və "Vətən Mücahidləri 2-ci nəşr" kitablarının təqdimat mərasimi keçirildi. Təqdimatda Şəhid anaları, qazilər, şəhidlərin yaxınları iştirak edirdilər. Tədbirdə duyğulanmamaq mümkün deyildi. Şəhid anaları və yaxınları danışdıqca zalda duyğulu anlar yaşanırdı. Amma çıxışçılar qeyd etdilər ki, həmişə şəhid ailələrinə gedib onlara baş çəkmək lazımdır. Ona görə ki, " Şəhidlər unudulanda ölürlər!"

Bu təkcə təqdimat mərasimi deyildi, bu həm də bir anım mərasimi idi. Vətən mücahidlərini anma mərasimi. Kitab apreldə və fevralda şəhid olan igid vətən oğullarından, mücahidlərimizdən bəhs edir. İstərdim ki, kitabda Şəhidlərimiz Aprel və Fevral şəhidlərinə ayrılmasınlar. Onlar sadəcə aprel ayında və fevral ayında Şəhid olublar. Onlar aylara bölünməməlidirlər. Onlar Azərbaycan Şəhidləridirlər!

Bu məsələdən danışan Milli Qəhrəmanımız,doğum tariximdə doğulmuş Fred Asifin qardaşı Ədalət Fred Məhərrəmov oldu. Ədalət müəllimin alovlu çıxışını eşitcək mən özümü itirdim. Elə bildim, "Leninsiz" meydandayam. Ruhlandım, qürurlandım Özümü Fred Asifin, Fred Ədalətin simasında gördüm. Fred Ədalət həqiqətdən danışdı və mən fikirləşdim, elə tədbirlər var ki, iştirakçılara sıxıcı görsənir və onlar mürgüləyir, hətta yatırlar da, fikirləşdim ki, bu tədbirdə yatandan vətəndaş olmaz! O çıxışdan sonra mən Aprel və Fevral şəhidlərini ayrı tanımadım. Apreldə və Fevralda Şəhid Olan Azərbaycan Şəhidlərini tanıdım, xatırladım.

Şəhid ailələri o qədər qürurlu və kövrək danışırdı ki, adam özünü kövrəlməkdən saxlaya bilmirdi. Mən də elə hey çalışırdım ki, kövrəlməyim. Elə bil buna Şəhidlər icazə vermirdi. Elə bil şəhidlərin ruhu mənə "Kövrəlmə, ağlama, axı biz ölməmişik" deyə səslənirdilər. Şəhidlərimizin səsi mənim göz yaşlarımı kəsirdi. Yanımdakı bir ağsaqqalın kədərli və kövrək baxışları məni çox narahat edirdi. Niyə ağlayırsan, Şəhid Atası? Axı Şəhidlər Ölməyiblər! Şəhidlər haqq, ədalət və vətən yolunda şəhid olublar! Onların qanadları altında yüksələcəyik! İndi də yüksəliriksə, deməli, onlar ölməyiblər! Bilirəm, oğlunuz evlənmək istəyirdi, nəsilə davamçı olmaq istəyirdi, bəy otağını görmək istəyirdi, amma şəhid olmağı daha çox istəyirdi! Bu arzu dünyanın ən böyük arzusudur, bir Azərbaycan Türkü üçün, bir dəliqanlı üçün bundan böyük, müqəddəs arzu ola bilməz.

Axı kimin ürəyi dözər bir Şəhid anası ilə müsahibə aparmağa? Bunu ən çox gənc yazar xanımlar bilərdi. Çalışırdım ki, şəhid qohumları ilə müsahibə aparım. Amma fikirləşdim ki, şəhid anasının oğul dərdini niyə bir də təzələyim ki?

Üç gənc yazar xanımlar şəhidlərimiz haqda o qədər məlumat bildilər ki... Bir şəhidin ən böyük arzusunun Qarabağı azad etmək olduğunu, bir şəhidin anasının ad günündə orduya çağrılmasını, bir şəhidin öz komandirinin ruhdan düşməsinə mane olmasını, bir şəhidin Mübariz İbrahimovu ideal bilməsini, bir şəhidin uşaqlıqdan Şəhid olmağı arzulamasını,-bir şəhidin anasız, bir şəhidin atasız qaldığını,şəhadətindən 5 saat əvvəl ailə üzvü ilə danışmasını... Daha nələri, nələri. Hər dəfə ürəkləri parçalandı.

*(Davamı 14-cü səhifədə)*

Kredo 2020.- 2 yanvar.- S. 4;14.

*(Əvvəli 4-cü səhifədə)*

Necə ki "Parçalanmış Ürək" povestində olduğu kimi.Bir ana öz övladının parasının bir insana verildiyini bilməsi.Belə dərd olarmış,Ay Allah!Nə dərdləri,nə dərmanları verirsən,Ay Allah!Bu kitabı yazanlar da Şir ürəyi yeyib,bu kitabı oxuyanlar da.

İstərdim ki,Günnütdə şəhadətə ucalan şəhidimiz Adil Tatarovdan da danışılardı.Eybi yox,onlar ki belə dəyərli iş görüblər,onların haqqını unutmamaq lazımdır.Ancaq biz ruhdan düşməməliyik.Vətənimizin gənc övladlarını vətənpərvərliyə səsləməliyik.Tədbirdə bu vəzifəni Azərbaycanın əməkdar artisti Aybəniz Haşımova və onun rəhbərlik etdiyi Sənət Akademiyasının tələbələri yerinə yetirdilər.Aybəniz xanım gözəl vətənpərvərlik nəğmələri ilə tədbir iştirakçılarını daha əzmli olmağa çağırır və səhnədə vətənpərvərlik ruhunda şüarlar səsləndirirdi.Bu xüsusiyyətinə görə mənim Aybəniz xanıma olan hörmətim daha da artdı.

Tədbirdə Milli Qəhrəmanımız Çingiz Qurbanovun şəhid olmasından sarsılaraq onun xatirəsinə həsr etdiyim "Ey yeni Şəhidimiz!" adlı şeirimi söylədim.Sonra şəhid ailələri və qazilərimizlə birlikdə, yanımda dayanmış şəhid övladı Səidlə ayrıca xatirə şəkili çəkdirdim.Ancaq Səid qardaşımın hansı şəhidimizin övladı olduğunu ürək edib soruşa bilmədim.-Həm də soruşmağım yersiz olardı.-Çünki hamısı vətənimiz uğrunda canını qurban verən,xatirəsi bizim üçün əziz olan şəhidlərimizin övladları idilər.

*S.NƏSİBOĞLU*

# VƏTƏN MÜCAHIDLƏRİ

Həmin tədbirdə qazimiz Ülvi Qədirlə və şəhid Rasim Məmmədovun qardaşı Şahin Məmmədovla da yaxından tanış oldum.Şəhidlərimizin adı ilə bağlı tədbirdə iştirakımla qürur duydum.

Elə həmin gün də kitabı oxumağa başladım.Birinci Qanun nəşriyyatında nəşr olunmuş kitabdan başladım.Sevimli nəşriyyat özü də mənə ilham verir ki, mən həmin kitabı oxuyum.-Lakin bu dəfə nəşriyyat yox,Şəhidlər mənə ilham verdi.Əvvəl ikinci kitabı oxudum,sonra da birinci kitabı.Neçə arzular oxudum,neçə təzə açan çiçəklər oxudum,təzəcə dərilmiş çiçəklər...Şəhid uşaqlarının üzündən kədər oxudum,çox qəmləndim.Onun ürəyini oxudum.O deyir,kaş mənim atam olaydı.Şəhid Mikayıl Vahabzadə qərənfilə dediyi kimi,mən də Şəhid balasına deyirəm,sən elə uşaqsan ki,sənin atan 10 milyondur.Sən elə uşaqsan ki,atanın uğrunda getdiyi Vətən sənə atalıq edir.Anası həkim olub şəhidliyə ucalan şəhid balası,sənin anan 10 milyondur, hamısı tək bir səslə sənə layla deyir...

Axırıncı cümlələrim budur.Kitabı təkcə biz oxumuruq,kitabdan təkcə biz qəmlənib sevinmirik,bu kitabı şəhidlər də oxuyur!Beləcə,Vətən mücahidlərinin ruhu şad olur! Allah aylara, illərə bölünmədən Vətən, müstəqilliyimiz, ərazi bütövlüyümüz, türkçülüyümüz, Haqq və Ədalət uğrunda canından keçmiş bütün mücahidlərimizə rəhmət etsin! Amin!

***20.12.2019.***